# Azərbaycan bəstəkarlarının birpərdəli baletlərinin obraz təzahürü

**Məlum olduğu kimi, incəsənətin sintetik janrlarından baletə ən yaxın olanı operadır. Hər iki janrda müxtəlif sənət növlərinin qarşılıqlı əlaqəsi, sintezi olduqca mühüm əhəmiyyət təşkil edir. Lakin operaya nisbətən baletdə bədii şərtilik daha üstün olduğundan əsərin əsas ideyası xoreoqrafiya və musiqinin qarşılıqlı əlaqəsində ön plana çəkilir, musiqinin bədii emosional gücü rəqsin ifadəli, təsirli bədii təcəssümündə balet qəhrəmanlarının dərin psixoloji obrazlarının açılmasına şərait yaradır.**

**Operada olduğu kimi, baletdə də münaqişənin mövcudluğu zəruri şərtlərdən olub, əsas qəhrəmanların özünəməxsus xüsusiyyətlərinin, xarakterlərin qarşılıqlı münasibəti və münaqişəsi zəminində açılmasına xidmət edir.**

Nəzər saldığımız baletlərdə ayrı-ayrı qüvvələr, personajlar, ideyalar və yaxud eyni qəhrəmanın müxtəlif hissləri, cəhətləri arasında olan münaqişə dramaturji inkişafın başlıca əsası və təkanverici amil kimi, təzadlı obrazların qarşılıqlı təsir və mübarizəsində əks olunaraq, ilk növbədə, intonasiya ziddiyyətində əks qüvvələrin təzadlı melodik quruluşunda özünü göstərir.

Asafyevin "intonasiya dramaturgiyası" adlandırdığı bu üsulun ayrı-ayrı baletlərdə əsərin ideyası və süjet xətti ilə bağlı fərqli metodlarla təzahürünün şahidi oluruq. Məsələn, "Şərq poeması", "Qafqaza səyahət" baletlərində bəstəkarlar fərqli musiqi ifadə vasitələrindən istifadə edərək musiqi obrazlarının "qütbləşmə" metoduna müraciət edir, fərqli obrazlar qütbünü antiteza və təzadlı müqayisə əsasında təqdim edirlər.

Baletlərin bir qismində münaqişənin antiteza və təzadlı müqayisə şəklində deyil, əks qütbləri təmsil edən antoqonist qüvvələrin qarşılıqlı toqquşmasında təzahür etdiyini aşkar etdik. Bu baxımdan kəskin konfliktli dramaturji xəttə malik "Nəsimi", "Leyli və Məcnun", "Don Kixot" əsərlərinin kulminasiya epizodları buna gözəl misal ola bilər.

"Qobustan kölgələri", "Xəzər balladası" baletlərində isə insan və kortəbii qüvvələrin toqquşması həyatın inkişafına təkan verən Xeyir və Şər qüvvələrinin mübarizə simvoluna çevrilərək, dramaturji inkişafda son dərəcə gərginlik yaradır. Maraqlıdır ki, bu cür hallarda müsbət obrazların səciyyəsi ilə bağlı verilən mövzular gözəl melodik dilə malik olub, bəzən muğam intonasiyaları əsasında qurulursa, əks qütbü təşkil edən obrazlar bəsit intonasiya modusu, xromatizmlərlə zəngin motivlərlə xarakterizə olunur.

Baletlərdə doğma xalqın melodiyaları və ritmlərinə, muğamlarımıza müraciət edən bəstəkarlar milli xüsusiyyətləri müasir ifadə üsulları vasitəsilə bədii şəkildə yeniləşdirir, nəticədə təzə milli koloritli, təzə məna, forma və məzmun xüsusiyyətləri ilə zəngin musiqi yaradırlar.

Məlum olduğu kimi, muğamların müxtəlif janrlı əsərlər üçün tükənməz mənbə olduğunu daima öz məqalələrində vurğulayan Ü.Hacıbəyov əsərin intonasiya aləminin muğam köklərinə əsaslanmasını labüd bir şərt, zəruri yaradıcılıq vəzifəsi kimi məqsəd qoymağı tövsiyə edirdi. Əvvəl yaranmış balet və digər janrlardakı bu ənənəni davam etdirən bəstəkarlar əsas qəhrəmanların daxili aləmi, dərin fəlsəfi fikirlərin təcəssümü ilə bağlı muğamlara müraciət edərək, obraz-emosional məzmununun daha parlaq ifadəsinə müvəffəq olurlar. Balet janrından qazanılan nailiyyətlər, dərin fəlsəfi mövzulara müraciət, professional xalq incəsənətinin geniş yayılmış janrı olan muğamların xoreoqrafik təcəssümü üçün yeni formaların meydana gəlməsinə şərait yaratdı.



N.Əliverdibəyovun "Muğam" xoreoqrafik· miniatüründə baletmeysterlər R.Axundova və M.Məmmədov ənənəvi balet adajiosu formasına müraciət edir, milli rəqs elementləri və müasir xoreoqrafiyaya məxsus plastik hərəkətləri sintez etməklə Bayatı-şiraz muğamının sədaları altında dərin psixoloji hissləri əks etdirən maraqlı tamaşa yaradırlar.

Muğamla bağlı cizgilərdən danışarkən "Nəsimi" baletində bəzi nömrələrin kompozisiya quruluşuna görə ənənəvi muğam dəstgahlarını xatırlatması maraq doğurur. Ümumi şüştər-lad əsaslı və oxşar intonasiyalar üzərində qurulmuş "Nəsimi və sevgilisinin birinci dueti" və "Qızların rəqsi" adlı nömrələrdə duetin həzin, məlahətli melodiyası təsnifi, nömrənin sonunda qaboyun kadensiyası muğam şöbəsini və növbəti rəqs nömrəsi isə rəng funksiyası rolunu yerinə yetirir. Metroritmik cəhətdən təzadlı olan bölmələrin dəstgahlara xas bu cür ardıcıllaşması prinsipi xoreoqrafik təcəssümdə də öz əksini taparaq, maraqlı səhnənin yaranmasına yol açır.

N.Gəncəvi, M.Servantes kimi dünya klassiklərinin əsərləri əsasında yaranan "Leyli və Məcnun", "Xeyir və Şər", "Don Kixot" baletləri digər janrlar kimi birpərdəli baletlərin dərin ideya və məzmun, yüksək ideyaları təcəssüm etməyə qadir olduğunu bir daha nümayiş etdirdi. Bu əsərlərdə qəhrəmanların bizdən çox-çox uzaq orta əsrlərdə yaşamasına baxmayaraq, bəşəriyyət üçün əbədi olan böyük fəlsəfi problemlər, bütün dövrlər üçün aktual olan mövzu - insanın azad və xoşbəxt yaşamaq arzusu əks olunaraq, günümüzün müasir mövzusuna çevrilir. İncəsənətin digər sahələri ilə müqayisədə heç bir tərcüməyə möhtac olmayan musiqi və xoreoqrafiya daha azad və idraki xüsusiyyət etibarilə əlverişli vəziyyətdə olduğundan bu əsərlər milliyyəti və dilindən asılı olmayaraq, hər bir insanın qəlbinə, hisslərinə çox tez və asanlıqla yol taparaq, təsirləndirib düşündürmək üçün geniş imkan yaradır, insanları yüksək amallar uğrunda mübarizəyə, xeyirxahlığa səsləyir.

Ədəbi əsərlər əsasında yaranan baletlərin dramaturgiyası balet teatrının spesifik qanunları əsasında qurularaq, süjetin ən mühüm mərhələlərinə, qəhrəmanların ən çətin məqamlardakı vəziyyətlərinə əsaslanır, hadisələrin zahiri tərəfindən çox, məhz daxili mahiyyətini işıqlandırmağa təşviq edilir. Müəlliflərin ədəbi süjetin bütün hadisələrini ardıcıl surətdə, bütün təfərrüatı ilə nəql etməyərək, əsərin əsas ideyası və obrazlar konfliktini müstəqil şəkildə ifadə etməsi bu tamaşaların uğurlu alınmasının başlıca səbəblərindən biri kimi dəyərləndirilə bilər.

Böyük baletlərdə olduğu kimi, birpərdəli baletlərdə də müasirlərimiz, yaxın və uzaq keçmişimizi əks etdirən ən müxətlif mövzularla yanaşı klassik ədəbi əsərlərə müraciət edən bəstəkarlar irihəcmli tamaşalarda açılması mümkün olan böyük ideya və hisslərin kiçik baletlərdə də təcəssümünün mümkünlüyünü isbat etdilər.

Təkcə azərbaycanlıların deyil, bütün bəşəriyyətin qədim keçmişini əks etdirən "Qobustan kölgələri" baletində ulu əcdadlarımızın ibtidai yaşayış tərzi, təbiətlə qarşılıqlı mübarizəsindən bəhs olunaraq tamaşanın sonunda insan idrakının qələbəsi, ictimai şüurun təhtəlşüur xaos üzərində təntənəsi ilə nəticələnirsə, "Xəzər balladası"nın mövzusu müasir günümüzlə həmahəng səslənir, çağdaş dövrümüzdə ölkəmizin güclü neft siyasəti yeritdiyi bir

dövrdə neftçilərin çətin və şərəfli əməyi, kortəbii qüvvələrə qarşı mübarizəsi əks olunaraq, qloballaşma dövrünün ən mühüm ekoloji problemlərindən biri olan dənizin çirklənməsinə qarşı insanları ayıq-sayıq olmağa çağırır.

Orta əsrlər dövrünü əks etdirən "Leyli və Məcnun", "Nəsimi dastanı" baletlərində despotizmə, hər cür cəhalət və mövhumata qarşı şiddətli etiraz duyulur. "Ümid valsı" ötən əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələrə güzgü tutaraq, dəyişən dəyərlər fonunda iki gəncin yarımçıq qalan məhəbbətindən bəhs edir. "Şərq poeması" baletində isə əsərləri ilə milyonların sevgisini qazanmış istedadlı şairin sosialist inqilabı və sovet hakimiyyətinə qarşı təzadlı mövqeyi ilə bağlı faciəvi aqibətindən danışılır.

Tariximizin müxtəlif səhifələrini əks etdirən bu baletlərdə ədəbi simaların, görkəmli şəxsiyyətlərin təcəssümü ilə bağlı mövzu və epizodlara da yer verildiyinin şahidi oluruq. Bu baxımdan F. Əmirovun "Nəsimi", T. Bakıxanovun "Şərq poeması" baletlərində böyük şairlərin obrazları təcəssüm olunarkən onların həm dünyagörüşü və fəlsəfi düşüncələri, həm də ən əsası bir insan kimi canlandırılması aydın nəzərə çarpır, obrazın lirik duyğularla zəngin daxili aləmi dolğun formada açılaraq, hərtərəfli şəkildə tamaşaçıya təqdim olunur.

"Leyli və Məcnun"da cərəyan edən hadisələr şairin dilindən söylənərək Şərqin böyük mütəfəkkiri Nizaminin ifadə etdiyi ideya və fikirlər, həyatın reallıqlarına fəlsəfi yanaşma münasibəti bütün dərinliyi ilə qabardılaraq göstərilir.

"Qafqaza səyahət"də Vətənini dünyaşöhrətli yazıçı A.Dümanın gözləri ilə təsvir edən A.Əlizadə, doğma xalqının zəngin bədii irsə, zaman-zaman əcnəbiləri heyran qoyan qədim mədəniyyətə malik olduğunu dönə-dönə qeyd etməklə, əsl sənətkar - vətəndaş mövqeyindən çıxış edərək, torpaqlarımızın böyük hissəsinin düşmən tapdağı altında olduğu bir dövrdə mənfur qonşularımızın iddialarının əsassız olduğunu bir daha vurğulayır, gözəlliyi, istedadı ilə yazıçını heyran qoyan Natəvandan qürurla "söhbət açır", "Ümid valsı" baletində isə millətinin tərəqqisi üçün əlindən gələni əsirgəməyən, inqilabdan sonra ilkin repressiya dövrünün ağır təzyiqlərinə məruz qalmış məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevi hörmət və ehtiramla yad edir.

Bu əsərlərin musiqisinə hopmuş xalq yaradıcılığının əlvan, özünəməxsus forma və məzmun rəngarəngliyi, obrazlılıq xüsusiyyətləri, intonasiya və janr müxtəlifliyi onun emosional təsir gücünün artmasına, kütləviliyinə səbəb olmaqla yanaşı, balet incəsənətinin plastik dilinin zənginləşməsinə, milli ənənələr əsasında maraqlı, ifadəli, cazibəli rəqs elementlərinin də yaranmasına öz təsirini göstərməyə bilməzdi.

**Təqdirəlayiqdir ki, bu gün bəstəkarlar və baletmeysterlərin qarşılıqlı iş birliyində yaradıcı axtarışlar davam edir, əvvəllər tamaşaya qoyulmuş bu əsərlər yeni quruluşda cəmiyyətin inkişafı, çağdaş dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilib, yeni-yeni ideyalarla zənginləşir. Bu isə ölkəmizin mədəni həyatında özünə möhkəm mövqe tutan balet incəsənətinin perspektivli gələcəyindən xəbər verir.**

● **Şəfəq HACIYEVA,**
*Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı*

## Ədəbiyyat

1. Абасова Э. Симфонические гравюры "Дон Кихот" Кара Караева. Б. -1965.
2. Асафьев Б. О балете. Л., "Музыка" - 1974.

**Резюме**

В статье Шафаг Гасановой "Образное отражение в одноактных балетах Азербайджанских композиторов" раскрывается драматургическая картина образного решения балетных персонажей в одноактных балетах национальных по сюжету и музыкальному языку основанных на общечеловеческих культурных традициях.

**Summary**

Article Shafag Hasanova "Figurative reflection in one-act ballets by Azeri composers" reveals dramaturgical pattern shaped solutions ballet characters in the one-act ballets by the national story and musical language based on universal cultural traditions.